

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 190 (21.600)

*11 oktyabr 2016-cı il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İstanbulda keçirilən 23-cü Dünya Enerji Konqresində iştirak etmək üçün oktyabrın 9-da Türkiyə Respublikasına işgüzar səfərə gedib.

* * *

Oktyabrın 9-da İstanbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü olub.

Görüş zamanı Azərbaycan və Türkiyə prezidentləri ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, nəqliyyat və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə ediblər. Dövlət başçıları əlaqələrimizin bütün sahələrdə bundan sonra da genişlənəcəyinə əminliklərini bildiriblər.

Söhbət zamanı münasibətlərimizin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Oktyabrın 10-da İstanbulda 23-cü Dünya Enerji Konqresi işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Konqresin açılışında iştirak edib.

Dövlət başçısı Konqresdə çıxış edib.



## Naxçıvanda keçirilən iməcilikdə yeni üzüm bağı salınmışdır



Muxtar respublikanın təbii-iqlim şəraiti üzümçülüyün inkişaf etdirilməsinə imkan verir. Üzümçülüyün inkişafına dair dövlət proqramının icrası diqqət mərkəzində saxlanılır, yeni üzüm bağları salınır, bu sahədə istehsalın həcminin artırılması və bazarın tələbatının ödənilməsi məqsədilə ardıcıl tədbirlər görülür.

Oktyabrın 8-də muxtar respublikada keçirilən iməciliklər zamanı yeni üzüm bağı salınmış, yaşıllıqlara qulluq göstərilmiş, səliqə-sahman və təmizlik işləri aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin və “Gəmiqaya” Holdinq Şirkətlər İttifaqının kollektivləri Uzunoba su anbarının yaxınlığındakı ərazidə keçirilən iməcilikdə iştirak etmişlər. Ərazidə əvvəlcədən aqrotexniki tədbirlər görülmüş, üzüm əkini üçün yararlı vəziyyətə gətirilmişdir. İməcilik iştirakçıları 2 hektar sahədə 2500-ə yaxın üzüm tingi əkmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, üzüm tingləri əkmiş, payız əkini dövründə muxtar respublika ərazisində yeni üzüm və meyvə bağlarının salınması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Oktyabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Portuqaliya Respublikasının ölkəmizdəki nümayəndəliyinin müvəqqəti işlər vəkili xanım Mariya Joao Lopes Kardoso ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı salamlamış və ona muxtar respublika haqqında məlumat vermişdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Portuqaliyanın muxtar qurumları arasında əlaqələrin qurulmasının və təcrübə mübadiləsinin aparılmasının əhəmiyyətini qeyd edən Ali Məclisin Sədri iqtisadi-ticarət, elm, təhsil, mədəniyyət, səhiyyə və turizm sahələrində əməkdaşlıq üçün geniş imkanların olduğunu diqqətə çatdırmış, bu istiqamətdə səylərin göstəriləcəyinə inamını ifadə etmişdir.

Səmimi qəbula görə minnətdarlıq edən Mariya Joao Lopes Kardoso ümummilli lider Heydər Əliyevin vətəni Naxçıvana səfərindən məmnunluğunu bildirmişdir. Səfər müddətində bir sıra görüşlər keçirəcəyini qeyd edən qonaq Portuqaliyanın muxtar qurumları ilə Naxçıvan Muxtar Respublikası arasında müxtəlif sahələrdə əlaqələrin yaradılmasına mühüm əhəmiyyət verdiklərini diqqətə çatdırmışdır.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



## Naxçıvan Dövlət Texniki Kolleci üçün yeni tədris kompleksi istifadəyə verilmişdir

Oktyabrın 10-da Naxçıvan Dövlət Texniki Kollecinin yeni tədris kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Dövlət Texniki Kolleci üçün yeni tədris kompleksinin istifadəyə verilməsi münasibətilə kollecin müəllim və tələbələrini təbrik edərək demişdir: Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu təhsil strategiyası bu gün ölkəmizdə məzmunca yeni mərhələyə yüksəlib. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsində həyata keçirilən ardıcıl islahatlar nəticəsində təhsil müəssisələrində güclü maddi-texniki baza formalaşdırılmış, gənclərin təhsil alması üçün geniş imkanlar yaradılmışdır. Muxtar respublikamızda da gənclərin hərtərəfli təhsilə yiyələnmələrinə və əsl mütəxəssis kimi yetişməsinə xüsusi diqqət yetirilir. Bu işdə orta ixtisas məktəblərinin də imkanlarından geniş istifadə olunur. Son illər təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlər orta ixtisas məktəblərini də əhatə etmiş, bu təhsil ocaqlarının maddi-texniki bazaları gücləndirilmişdir. Naxçıvan Dövlət Texniki Kolleci üçün yeni kompleksin istifadəyə verilməsi də bu sahədə aparılan işlərin davamıdır.

Ali Məclisin Sədri demişdir: İyirmi birinci əsr texnologiya əsridir. Texniki yeniliklər olmadan hər hansı bir sahənin inkişafını təsəvvür etmək mümkün deyil. Bu da özlüyündə texniki sahələr üzrə ixtisaslı kadrların hazırlanmasını zərurətə çevirir. Təcrübə göstərir ki, texniki təhsil bütövlükdə təhsil sisteminin aparıcı istiqaməti olmaqla yanaşı, həm də iqtisadi inkişafın təmin olunmasında mühüm əhəmiyyətə malikdir. Bu gün muxtar respublikanın sosial-iqtisadi inkişafı və bunun nəticəsi olaraq açılan yeni iş yerləri ixtisaslı kadrlara olan tələbatı artırmışdır. Bu amillər, eləcə də texniki fənlərə artan maraq nəzərə alınaraq Şərur rayonunda Fizika-Riyaziyyat Təmayüllü Lisey yaradılmış, ali və orta ixtisas təhsili müəssisələrində yeni texniki ixtisaslar açılmışdır. Bundan sonra da muxtar respublikada texniki təhsilin məzmunu müasir tələblər baxımından yeniləşdirilməli, ixtisaslaşma aparılmalı, kadr hazırlığı əmək bazarının tələblərinə uyğun qurulmalıdır.

Qeyd olunmuşdur ki, muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində, o cümlədən Naxçıvan Dövlət Texniki Kollecində kadr hazırlığı aparılan ixtisaslar 2015-ci ildən etibarən aid təşkilatlara hamiliyə verilmişdir. Məqsəd kadr hazırlığında hami təşkilatların bazasından və mövcud imkanlarından səmərəli istifadə etməkdir. Buna görə də Təhsil Nazirliyi hami təşkilatlarla birlikdə Texniki Kollecin tələbələrinin təcrübə keçmələrini və onların işlə təminatını diqqətdə saxlamalıdır. Naxçıvan Dövlət Texniki Kollecində yaradılan yeni infrastruktur və maddi-texniki bazadan, informasiya texnologiyalarından səmərəli istifadə olunmalı, texniki təhsilin məzmunu daha da təkmilləşdirilməlidir. Tədris prosesində təcrübi məşğələlərə, yeni təlim üsullarına üstünlük verilməlidir. Tədris proqramına uyğun elektron dərs vəsaitləri hazırlanmalı, pedaqoji heyətin səviyyəsi yüksəldilməli, müəllimlər yeni təlim üsullarını mənimsəməli, məsuliyyətlə və tələbkarlıqla çalışmalıdırlar. Tələbələr onlar üçün yaradılan şəraitdən düzgün istifadə etməli, hərtərəfli təhsil almalı, biliklərə dərindən yiyələnməli, mütəxəssis kimi yetişməlidirlər.

Ümummilli liderimiz Heydər Əliyevin ***“Cəmiyyətdə layiqli yer tutmaq üçün, ölkəyə, Vətənə, millətə faydalı olmaq üçün bütün imkanlardan istifadə edib yüksək təhsil almaq lazımdır”***, – fikirlərini diqqətə çatdıran Ali Məclisin Sədri bu vəzifələrin yerinə

*Ardı 2-ci səhifədə*





yetirilməsində kollektivə uğurlar arzulamış, bir daha yeni tədris kompleksinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmişdir.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək demişdir ki, 2016-cı ilin ötən dövründə muxtar respublikada 8 tam orta məktəb binası və bir peşə məktəbi istifadəyə verilmişdir. Hazırda Naxçıvan Şəhər Peşə Liseyi, eyni zamanda 10 ümumtəhsil məktəbi üçün binaların tikintisi və əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Naxçıvan Dövlət Texniki Kolleci üçün binanın istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır. Məmməd Qəribov yaradılan şəraitə görə muxtar respublikanın təhsil işçiləri adından minnətdarlıq etmişdir.

Naxçıvan Dövlət Texniki Kollecinin müəllimi Aytən İmanova demişdir ki, muxtar respublikada digər sahələr kimi, təhsil də sürətlə inkişaf edir, yeni təhsil ocaqları tikilib istifadəyə verilir. Təhsilin bütün pillələri arasında əlaqələr gücləndirilmiş, qabaqcıl təcrübənin mənimsənilməsi və yüksək intellektli kadrların hazırlanması üçün mühüm stimul yaradılmışdır. Təhsil işçilərinə göstərilən diqqət və qayğı pedaqoji kollektivləri daha yaxşı işləməyə sövq edir, üzərimizə böyük məsuliyyət qoyur. Bütün bunların müqabilində pedaqoji kollektiv gənc nəslin təlim-tərbiyəsində, peşəkar və vətənpərvər kadrların yetişdirilməsində səylə çalışacaqdır.

Sonra Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, kollecin binası 5 mərtəbədən ibarətdir. Binada 14-ü elektron lövhəli olmaqla, 26 auditoriya, kimya-biologiya, fizika və baytarlıq laboratoriyaları, tədris olunan ixtisaslara uyğun 10 fənn kabinəsi, Heydər Əliyev lektoriyası, 3 kompüter otağı, baytarlıq fənn komissiya otağı, müəllimlər otağı, kitabxana, bufet və 120 yerlik iclas zalı vardır.



Təhsil ocağının informasiya texnologiyaları ilə təminatı diqqətdə saxlanılmış, 66 kompüter quraşdırılmış və internetə qoşulmuşdur. Kitabxanada isə 2850 dərslik və 1175 bədii ədəbiyyat olmaqla, 4025 kitab müəllim və tələbələrin istifadəsinə verilmişdir. Heydər Əliyev lektoriyasında ümummilli liderin həyat və fəaliyyəti gənc nəslə öyrədiləcək, Heydər Əliyev lektoriyaları, ulu öndərə həsr olunmuş tədbirlər keçiriləcəkdir.

Ali Məclisin Sədri tədris prosesində elektron lövhələrdən və elektron dərsliklərdən istifadənin, eləcə də tələbələrin kompüter biliklərinin artırılmasının əhəmiyyətini vurğulamış, bununla bağlı müvafiq tapşırıqlar vermişdir.

Kollecdə yol hərəkətinin təşkili, baytarlıq təbabəti, nəqliyyatda daşımaların təşkili (dəmir yolu üzrə), bank işi, mühasibat uçotu, rabitə qovşaqları və kommunikasiya sistemləri olmaqla, 6 ixtisas üzrə kadr hazırlığı aparılır. Hər ixtisas üzrə ayrıca kabinə yaradılmış, elektron lövhələr, müvafiq tədris avadanlıqları və əyani vəsaitlərlə təmin olunmuşdur. Hazırda kollecdə 455 tələbənin təhsili ilə 36 müəllim məşğul olur. 2016-2017-ci tədris ilində kollecə 123 tələbə qəbul olunmuşdur.

Fənn kabinələrinə baxış zamanı bildirilmişdir ki, hami təşkilatlarla qarşılıqlı işin təşkili tələbələrin praktik vərdişlərinin artırılmasına və mütəxəssis kimi hazırlanmasına mühüm töhfə vermişdir. Belə ki, yay tətili dövründə nəqliyyatda daşımaların təşkili ixtisası üzrə təhsil alan 14 tələbə müqavilə əsasında "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətində işə qəbul olunmuşdur.

Müəllimlərlə görüşən Ali Məclisin Sədri demişdir ki, texniki sahə üzrə kadrlara olan tələbat ilbəil artır. Naxçıvan Dövlət Texniki Kollecinin fəaliyyəti də bu istiqamətdə qurulmuşdur. Yeni binada kollektiv üçün lazımi tədris şəraiti yaradılmışdır. Ona görə də kollecdə dərslər hərtərəfli təşkil olunmalı, nəzəriyyə ilə yanaşı, praktika da öyrədilməli, mütəxəssis hazırlığına ciddi diqqət yetirilməlidir. Burada təhsil alan gənclər texniki sahə üzrə kadrlara olan tələbatı ödəməklə yanaşı, həm də gələcəkdə öz ixtisaslarına uyğun olaraq Naxçıvan Dövlət Universitetində təhsillərini davam etdirməlidirlər.

Müəllim Səadət Qocayeva minnətdarlıq edərək demişdir: Təhsilə qayğı ölkənin gələcəyinə qayğıdır. Bu gün muxtar respublikada gələcəyimiz olan gənc nəslin yetişdirilməsi qayğısına qalınır, təhsil sistemi tamamilə müasirləşdirilir. Naxçıvan Dövlət Texniki Kolleci üçün yaradılan şərait də təhsilə qayğının daha bir ifadəsidir. Bu, pedaqoji kollektivin üzərinə mühüm vəzifələr qoyur. Gənclərin yaxşı təhsil alması və mütəxəssis kimi yetişməsi üçün səylə çalışacaq, əsl vətəndaşlar yetişdirəcəyik.

Binanın həyətində də abadlıq işləri aparılmış, yaşıllıq salınmış, işıqlandırma sistemi qurulmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Heydər Əliyev lektoriyasının növbəti məşğələsi

***"Azərbaycanın dövlətçilik tarixinin yaşı 5000 ildən artıqdır və bu gün Azərbaycan xalqı dünyada öz dövləti olan 200 millətdən biridir. Bunun özü imkan verir ki, biz bir xalq olaraq öz müstəqilliyimizin qədrini bilək və onun nə qədər böyük bir nemət olduğunu dərk edək".***

Bu fikirlər AMEA Naxçıvan Bölməsindəki Heydər Əliyev lektoriyasının "Ümummilli lider Heydər Əliyev və Azərbaycanın dövlət müstəqilliyi" mövzusunda keçirilən 72-ci məşğələsində səsləndirilib.

Tədbiri giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev ümummilli lider Heydər Əliyevin müstəqilliyimizin bərpa edilməsi və qorunub saxlanılmasındakı xidmətlərindən danışıb. Qeyd edib ki, XX əsrin 90-cı illərində Azərbaycanın dövlət müstəqilliyini əldə etməsi yaranmış beynəlxalq ictimai-siyasi şəraitin və Azərbaycan xalqının müstəqillik uğrunda mütəşəkkil mübarizəsinin nəticəsidir. Müstəqilliyin qorunub saxlanılması isə ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı ən böyük xidmətlərindən biridir.

Sonra AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli "Ümummilli lider Heydər Əliyev və Azərbaycanın dövlət müstəqilliyi" mövzusunda məruzə edib. Ulu öndər Heydər Əliyevin hələ sovetlər dönəmində Azərbaycanı müstəqilliyə hazırlamaq üçün həyata keçirdiyi məqsədyönlü işlərdən bəhs edən natiq XX əsrin 90-cı illərində Azərbaycanda və Naxçıvan Muxtar Respublikasında baş verən siyasi prosesləri təhlil edib. Vurğulanıb ki, o zaman ulu öndərin məhz Naxçıvanda yaşayaraq fəaliyyət göstərməsi Naxçıvanı tarixin çox ağır sınaqlarından qurtardı. 1993-cü ildən isə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli lider Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirdi, ölkəmizi parçalanmaq təhlükəsindən xilas etdi.

Qeyd olunub ki, Azərbaycanın bu gün həm daxili, həm də xarici siyasətdə qazandığı bütün uğurların əsasında ulu öndər Heydər Əliyevin dövlət idarəçilik konsepsiyası, müəyyənləşdirdiyi siyasi xətt dayanır.

Sonra məşğələ iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Elnur KƏLBİZADƏ**

***Yığıncaqda təşkilatın sədri Tofiq Abutalıbov hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, 30 yanvar 1993-cü ildə ulu öndərimiz Heydər Əliyevin iştirakı ilə Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının təsis konfransı keçirilib.***

## Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının Nehrəm kənd ərazi ilk partiya təşkilatının hesabat-seçki yığıncağı keçirilib

Ötən dövr ərzində partiya sıraları xeyli genişlənib, ilk təşkilatlar fəaliyyətə başlayıb. Partiyanın rayon təşkilatı öz sıralarında 6717 nəfər partiya üzvünü birləşdirir. Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı Nehrəm kənd ərazi ilk partiya təşkilatı fəal siyasi qüvvə kimi öz işində Yeni Azərbaycan Partiyasının V Qurultayının qərarlarını, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının V Konfransının, partiyanın Babək Rayon Təşkilatının XI konfransının qarşıya qoyduğu vəzifələri rəhbər tutub. Təşkilat hesabat ilində ölkəmizdə həyata keçirilən daxili və xarici siyasətin, sosial-iqtisadi islahatların, bütün sahələrdə əldə edilmiş uğurların məzmun və mahiyyətinin kənd əhalisinə ətraflı və əsaslı şəkildə izah edilməsinə, bu istiqamətdə təbliğat işlərinin gücləndirilməsinə çalışıb, bu məqsədlə partiyanın fəal üzvlərinin imkanlarından istifadəni diqqət mərkəzində saxlayıb.

Qeyd olunub ki, partiya işinin keyfiyyətini daha da təkmilləşdirməklə partiya sıralarına sağlam məfkurəli gənclərin cəlb edilməsinə ciddi önəm verilib, bacarıqlı və istedadlı gənclərin qüvvəsindən səmərəli istifadə edilməsinə nail olunub. Hesabat ilində partiya sıralarına 40 nəfər qəbul edilərək onların sayı 1066 nəfərə çatdırılıb. Partiya üzvlərindən 400 nəfəri gənc, 300 nəfəri qadındır.

Bildirilib ki, muxtar respublikamızda aparılan yenidənqurma, abadlıq, quruculuq işləri və əhalinin rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər Nehrəm kəndini də əhatə edib. Kənddə kompleks quruculuq işləri aparılıb, yaşayış məntəqəsinin siması əsaslı surətdə dəyişilib. Təşkilatın qeydiyyatında duran partiya üzvləri kənddə, rayonda, muxtar respublikada həyata keçirilən belə tədbirlərdə fəallıq göstərir, ölkəmizin, muxtar respublikamızın inkişafına öz töhfələrini verirlər. Onlar Nehrəm kimi böyük iqtisadi potensialı olan yaşayış məntəqəsində aqrar sektorda, sənayedə, təhsildə və digər sahələrdə böyük uğurlar qazanılmasına ciddi səy göstərir, yaradıcısı ulu öndər Heydər Əliyev olan partiyanın nüfuzunun yüksəldilməsinə çalışırlar.



Partiya təşkilatının illik fəaliyyəti qənaətbəxş hesab olunub.

Sonra Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı Nehrəm kənd ərazi ilk partiya təşkilatının 9 nəfərdən ibarət idarə heyəti, təşkilatın sədri və müavinləri, Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının XII konfransına 12 nümayəndə seçilib.

Hesabat-seçki yığıncağına Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov yekun vurub.

* * *

Həmin gün Yeni Azərbaycan Partiyası Şərur rayon Axura kənd, Ordubad şəhər İnternat məktəbi, Şahbuz Rayon Mərkəzi Xəstəxanası, Sədərək Rayon Mədəniyyət Şöbəsi və rayon mərkəzi xəstəxanası ərazi ilk partiya təşkilatlarında da hesabat-seçki yığıncaqları keçirilib.

Yığıncaqlarda təşkilat sədrlərinin hesabat məruzələri dinlənilib, təşkilatların idarə heyətlərinin üzvləri, sədrləri, Yeni Azərbaycan Partiyası rayon təşkilatlarının konfranslarına nümayəndələr seçilib.

**Muxtar MƏMMƏDOV**

# Birləşmiş Ərəb Əmirliklərinin "Əl-İttihad" qəzetində Naxçıvanın turizm imkanları ilə bağlı məqalə dərc olunub



***Birləşmiş Ərəb Əmirliklərinin rəsmi dövlət qəzeti olan "Əl-İttihad"da müəllif Nəsrin Durzinin "Naxçıvan… Müalicə və əyləncə turizmi üçün istiqamət" sərlövhəli məqaləsi dərc edilib. Qəzetin çap variantının Naxçıvana həsr edilən səhifəsində isə muxtar respublikanın turizm imkanlarını əks etdirən fotoşəkillər yerləşdirilib.***

Məqalədə Azərbaycan Respublikasının tərkibində olan, ərazisi 5502 kvadratkilometr, əhalisi isə 435,5 min olan muxtar respublikanın coğrafi mövqeyindən, onun Ermənistan, Türkiyə və İran ilə həmsərhəd olmasından danışılıb. Yazıda "Naxçıvan" sözünün mənşəyi barədə də ətraflı söhbət açılıb. Müəllif bu barədə xalq etimologiyasına və tarixi qaynaqlara əsaslanaraq "Naxçıvan" sözünün "Nəqşi-cahan", yəni "dünyanın naxışı", "dünyanın bəzəyi" sözlərindən əmələ gəldiyini, ancaq xalq arasında geniş yayılmış rəvayətə görə, toponimin Nuh Peyğəmbərlə, daha doğrusu, "dünya tufanı" ilə bağlı olduğunu, bununla da, "Nuhçuvan" – "Nuh tərəfdarlarının məskəni", "Nuhun diyarı" mənasını verdiyini oxucuların diqqətinə çatdırıb.

N.Durzi 1924-cü ildə muxtariyyət statusu verilən Naxçıvanın sistemləşdirilmiş yazılı mənbələrə, muxtar respublika ərazisində arxeoloji qazıntılar zamanı əldə olunan materiallara, eləcə də məşhur Gəmiqaya qayaüstü yazıları və bu ərazidəki digər abidələrə görə beş min ilə yaxın yaşı olduğunun ehtimal edilməsini önə çəkib, respublikanın nadir təbii üstünlüklərindən söhbət açıb. Bu xüsusda 11 iqlim qurşağından 7-nin Naxçıvanın ərazisindən keçdiyi, flora və faunanın zənginliyi xüsusi qeyd edilib, bir sıra statistik məlumatlar təqdim olunub. Qeyd edilib ki, bu diyarda 400 böyük və kiçik çay, 200-dən çox mineral su bulağı, üç minədək bitki, 373 heyvan və 226 quş növü, o cümlədən onlarla dağ zirvəsi yerləşir. Naxçıvanın Azərbaycan Respublikası ərazisinin cəmi 6,2 faizini təşkil etməsinə baxmayaraq, flora və faunanın növ müxtəlifliyi ölkə üzrə göstəricinin müvafiq olaraq 60 və 56 faizini təşkil edir. Həmin amillər, habelə 58-i dünya, 455-i ölkə və 649-u yerli əhəmiyyətli olmaqla, Naxçıvanda mövcud 1162 tarixi-mədəniyyət abidəsi nəzərə alınaraq bu qədim diyarda ənənəvi və müalicəvi turizmin inkişaf etdiyi önə çəkilib, bu barədə geniş söhbət açılıb.

Müəllif ənənəvi turizm sahələrinə toxunaraq ziyarətçilərin Əshabi-Kəhf mağarasını, Gəmiqaya ərazisini, Nuhun qəbrini və sair ziyarət etmək imkanına malik olduqlarını oxucuların diqqətinə çatdırıb. Son dövrdə aparılmış araşdırmaların "Qurani-Kərim"də adıçəkilən Əshabi-Kəhf mağarasının Naxçıvan ərazisində yerləşdiyi və bunun xristianlıqla heç bir əlaqəsinin olmadığını ortaya çıxardığı yazıda xüsusi qeyd edilib, mağaranın müfəssəl şəkildə təsviri diqqətə çatdırılıb. Vurğulanıb ki, mağaranın sonunda olan məscidin mehrabında kitabə var. İri mərmər lövhədən (145x35 sm) ibarət kitabənin mərkəzi hissəsində, çərçivələr içərisində "Qurani-Kərim"in Əshabi-Kəhf hadisəsindən bəhs edən "əl-Kəhf" surəsindən 9-12-ci, 17-18-ci ayələri həkk edilib.

Nuh Peyğəmbərin qəbri barədə söhbət açan N.Durzi dünya tufanı zamanı Həzrəti Nuh Peyğəmbərin gəmisinin Naxçıvan ərazisindəki Haçadağa toxunduğunu, Qapıcıq zirvəsinə yaxın dağ ətəyində lövbər saldığını və həmin yerin Gəmiqaya adlandırıldığını bildirib. Həmçinin Nuhun qəbrinin Naxçıvanda olması haqqında fransalı İvan Şopenin, isveçrəli Dyubua-de Monperenin, rusiyalı Konstantin Nikitinin və digər tədqiqatçıların məlumatları oxucuların diqqətinə çatdırılıb. Həzrəti Nuh Peyğəmbərlə bağlı rəvayətlərdə hətta onun bacısının da məzarının Naxçıvan şəhərində olduğu barədə məlumat verilib.

Naxçıvanın müalicə turizmi sahəsində imkanlarından bəhs edərkən müəllif Darıdağ Balneoloji Müalicəxanasını və Duzdağ Fizioterapiya Mərkəzini misal çəkib, bu müəssisələr haqqında ətraflı məlumat verib. Qeyd edib ki, Darıdağ arsenli termal suyunun xüsusiyyətləri onu nəinki Qafqazda, hətta bütün dünyada olan arsenli sular içərisində birinci yerə çıxarır. Belə ki, eynitipli sular içərisində dünyada ən məşhuru İtaliyadakı Rençeko və Leviko, Fransadakı Lya-Bur-Bul adlı mənbələrdir. Darıdağ suyu onlarla müqayisədə çox fərqlidir. İtaliyanın Rençeko mənbəyində arsenli mineral suyun tərkibində arsenin miqdarı Darıdağdakından çoxdur. Lakin onun tərkibi qələvi deyil, orqanizmdə kifayət qədər sorulmur və lazımi müalicə effekti vermir. Darıdağ ərazisində hazırda beynəlxalq standartlara cavab verən iki yeni müalicəxana korpusundan istifadə edilir. Korpuslarda tibbi yardım göstərməyə geniş şərait və imkan var. Korpuslarda bir saat ərzində 25-30 xəstə qəbul etmək mümkündür.

Qeyd olunub ki, beynəlxalq standartlara uyğun olan yeraltı və yerüstü hissələrdən ibarət 100 çarpayılıq Duzdağ Fizioterapiya Mərkəzi 1980-ci ildə fəaliyyətə başlayıb. Azərbaycan Prezidenti İlham Əliyevin göstərişinə əsasən, mərkəz 2008-ci ildə yenidən qurulub. Bu müalicə ocağında müasir texnologiyalar əsasında bronxial-astma və digər allergik xəstəliklərin müalicəsi aparılır.

Həmçinin Naxçıvan Muxtar Respublikasının zəngin təbii ehtiyatlarından birinin də onun şəfalı bulaqları, mineral sularının olduğu diqqətə çatdırılıb. Muxtar respublikada mövcud olan Sirab, Vaykır, Badamlı, Gülüstan, Darıdağ, Əshabi-Kəhf kimi şəfalı mineral su bulaqlarının müxtəlif daxili orqan və oynaq xəstəliklərinin müalicəsində istifadə olunduğu bildirilib. Sirab, Badamlı və Gülüstan mineral sularının süfrə suyu kimi istehsal edildiyi vurğulanıb.

Məqalənin yekununda N.Durzi Azərbaycan hökumətinin 2015-ci ilin noyabrından etibarən Birləşmiş Ərəb Əmirliklərinin vətəndaşları üçün giriş vizasının respublikamızın beynəlxalq hava limanlarında verilməsi haqqında qərarının bu ölkədən Naxçıvan, Gəncə kimi şəhərlərə turist axınının kəskin artmasına səbəb olduğunu bildirib. Müəllif Azərbaycan kimi qədim ölkənin BƏƏ turistlərinin potensial turizm istiqaməti siyahısında özünəməxsus yer tutduğunu qeyd edib. O, Dubay-Bakı birbaşa aviareyslərinin mövcudluğunu və bəzən normadan artıq yükləndiyini nəzərə alaraq Şarca Əmirliyinə məxsus "Air Arabia" aviaşirkətinin Naxçıvana müntəzəm uçuşlar təsis etməsinin zəruriliyini diqqətə çatdırıb.

***"Azərbaycan Respublikası vətəndaşlarının 2016-cı il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 9 sentyabr 2016-cı il tarixli Sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.***

# Gənclər hərbi xidmətə yola salınır



Oktyabrın 10-da keçirilən mərasimi Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini, mayor Cavid Məmmədov açıb.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədr müavini Sultan İsmayılov, ədliyyə nazirinin müavini Emin Səfərov, gənclər və idman nazirinin müavini Mirməcid Seyidov çıxış edərək bu əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Valideyn Arzu Məmmədov ordu sıralarına yola düşən gənclərə xoş arzularını çatdırıb, övladının hərbi xidmətə yollanmasından böyük qürur hissi keçirdiyini deyib.

Çağırışçılar adından çıxış edən Elmin Zamanov Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını vaxtında və layiqincə yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov bildirib ki, ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq gənclərin hərbi xidmətə çağırılmasına başlanılıb. Həm biz, həm də çağırışçılar və onların valideynləri böyük qürur hissi keçiririk ki, hərbi xidmətə çağırılan gənclərimiz Vətəni qorumaq kimi müqəddəs bir xidmətə başlayacaqlar.

Qeyd olunub ki, ölkəmizdə ordu quruculuğuna göstərilən dövlət qayğısı Silahlı Qüvvələrimizin hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu sahədə görülən işlərin nəticəsidir ki, hazırda ölkəmizin təhlükəsizliyini etibarlı təmin edən müasir və güclü ordusu vardır. Ordumuz istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir. Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Silahlı Qüvvələrin Naxçıvan Muxtar Respublikasında yerləşən hissələrinin də inkişafına hərtərəfli şərait yaradıb, maddi-texniki təminat gücləndirilib, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılıb. Bütün bunlar çağırışyaşlı gənclərin hərbi hissələrdə nümunəvi xidmətinə imkan verib.

Xidmət rəisi Vətən qarşısında borcunu yerinə yetirməyə yola düşən çağırışçıların valideynlərini və yaxınlarını təbrik edib, əmin olduğunu bildirib ki, övladları ordu sıralarında ləyaqətlə xidmət keçməklə, hərbi texnikanın sirlərinə yaxından yiyələnməklə, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaqla onların başını uca edəcəklər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Qeyd edək ki, həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclər hərbi xidmətə yola salınıb.

# ADA Universiteti tərəfindən Naxçıvanda üçgünlük ixtisasartırma kursu keçirilib

***ADA Universiteti tərəfindən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin əməkdaşlarının iştirakı ilə keçirilən ixtisasartırma kurslarının ikinci mərhələsinə yekun vurulub.***



Kursun birinci günü ADA Universitetinin müəllimi Şəmsiyyə Mustafayeva idarənin diplomatik heyət üzrə əməkdaşlarına ünsiyyət bacarıqları, qeyri-şifahi ünsiyyət, mədəniyyətlərarası ünsiyyət, mədəniyyətlərarası ünsiyyətdə manelər, komanda işi və motivasiya, komanda əsasları, komanda motivasiyası məsələləri barədə danışıb.

Kursun ikinci günündə ADA Universitetinin hökumət, beynəlxalq münasibətlər və təhsil məsələləri üzrə prorektoru Fariz İsmayılzadə iştirakçılara Azərbaycan Respublikasının Avropa Birliyi və Amerika Birləşmiş Ştatları ilə ikitərəfli münasibətlərindən, kursun üçüncü günündə isə ADA Universitetinin İctimai və beynəlxalq əlaqələr fakültəsinin dekanı Elnur Sultanov kommersiya (ticarət) diplomatiyası və Azərbaycanın regiondakı geosiyasətindən bəhs edib.

Kursun üçüncü günündə yekun qiymətləndirilmədən sonra idarənin 13 əməkdaşına sertifikatlar təqdim olunub.

Qeyd edək ki, ADA Universiteti tərəfindən bu qəbildən kurslar 2007-ci ildən keçirilir. Naxçıvan Muxtar Respublikasında isə belə tədbir ilk dəfə bu il təşkil edilib. Kursun birinci mərhələsi sentyabr ayında keçirilib, ikinci mərhələyə isə oktyabrın 9-da yekun vurulub. Bu kursda diplomatiya və digər istiqamətlərlə yanaşı, konsulluq məmurlarının əsas vəzifə və məsuliyyətləri haqda da ətraflı söhbət açılır.

**Xəbərlər şöbəsi**

# Soyuducu anbarlar məhsul qəbulunu davam etdirir

*Muxtar respublikada qışa ciddi hazırlaşmaq, payız-qış mövsümündə əhalinin tələbatını tam ödəmək üçün görülən tədbirlərin sırasında əhalini təzə meyvə-tərəvəzlə təmin etməyə imkan verən soyuducu anbarların gücündən tam istifadə olunması, bazarda bolluq yaradılması xüsusi yer tutur.*

Bazarı ekoloji cəhətdən sağlam meyvə-tərəvəzlə təmin etmək üçün soyuducu anbarların mühüm rolu vardır. Xüsusən kənd təsərrüfatı məhsullarının saxlanılmasında anbarlar vacib funksiyanı həyata keçirir. Sahibkarlığa Kömək Fondu vasitəsilə ayrılan güzəştli kreditlər və sahibkarların özlərinin şəxsi vəsaiti hesabına Naxçıvanda soyuducu və digər ərzaq məhsullarının saxlanması üçün yeni anbarlar inşa olunur.

Belə anbarlar sahibkarların öz istehsal məhsullarını saxlaması və tələbatdan artıq istehsal olunan kənd təsərrüfatı istehsalı məhsullarının qəbulu məqsədilə yaradılıb. Yaradılmış soyuducu və digər təyinatlı ərzaq məhsullarının saxlanması üçün anbarların ümumi tutumu 21.515,0 tondur.

Muxtar respublikada qış mövsümündə əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi, qiymətlərin tənzimlənməsi və idxaldan asılılığın azaldılması məqsədilə soyuducu anbarlara məhsul qəbulu davam etdirilir.

1 iyun 2016-cı il tarixdən 10 oktyabr 2016-cı il tarixə soyuducu anbarlara kənd təsərrüfatı üzrə ixtisaslaşmış sahibkarların fəaliyyətinin stimullaşdırılması məqsədilə tələbatdan artıq istehsal edilmiş cəmi 3066,96 ton məhsul tədarük olunub. Bunun da 2371,74 tonu kartof, 388,74 tonu soğan, 220,0 tonu ərik, 77,18 tonu alma, 9,62 tonu sarımsaq məhsuludur. Tədarük edilmiş meyvə-tərəvəz məhsullarından 682,32 tonunun satışı həyata keçirilib. Haliyədə anbarlarda 2384,64 ton məhsul mövcuddur.

Muxtar respublikada fəaliyyət göstərən kənd təsərrüfatı məhsulları istehsalçılarının tələbatdan artıq istehsal etdikləri meyvə və tərəvəz məhsullarını soyuducu anbarlar münasib qiymətlərlə qəbul edir. Birinci növ kartof məhsulu üzrə 40 qəpik, ikinci növ kartof məhsulu üzrə 25 qəpik, əla növ soğan məhsulu üzrə 40 qəpik, birinci növ soğan məhsulu üzrə 35 qəpik, ikinci növ soğan məhsulu üzrə 25 qəpik, əla növ alma məhsulu üzrə 80 qəpik, birinci növ alma məhsulu üzrə 50 qəpik, ikinci növ alma məhsulu üzrə 30 qəpik, "Araz-3" Məhdud Məsuliyyətli Cəmiyyətinin alma sirkəsi məhsulu istehsalı üçün üçüncü növ alma məhsulu 5-10 qəpik olaraq soyuducu anbarlar tərəfindən tədarük olunur.

Meyvə-tərəvəz məhsullarının anbarlara tədarükü istiqamətində işlər davam etməkdədir.

Eyni zamanda soyuducu anbarlardan səmərəli istifadə etmək məqsədilə sahibkarlarla qarşılıqlı razılaşma yolu ilə anbarlar istehsalçılara icarəyə verilir. Hazırda soyuducu anbarlarda icarə olaraq 604,4 ton məhsul saxlanılmaqdadır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Elan

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət statistika orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün müsabiqə elan edir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 11 oktyabr 2016-cı il tarixdən 25 oktyabr 2016-cı il tarixədək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet saytında *(www.dqmk.nmr.az)* elektron xidmətlər bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

***Əlavə məlumat üçün:***
***Telefon: 545-65-71***
***e-mail: dqmk@nakhchivan.az***

| Vəzifə kodu | Dövlət orqanı və struktur bölmə | Ştat sayı | Təsnifat | Vəzifə |
|---|---|---|---|---|
| | **1. Şərur Rayon Statistika İdarəsi** | | | |
| 399124 | Alışar kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399534 | Çərçiboğan kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399514 | Kərimbəyli kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399494 | Maxta kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399234 | Oğlanqala kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399584 | Püsyan kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399144 | Şəhriyar kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399484 | Tumaslı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399224 | Zeyvə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399255 | Aşağı Yaycı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399555 | Çəmənli kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399535 | Çərçiboğan kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399395 | Dərəkənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399245 | Dizə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399475 | Ərəbyengicə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399265 | Gümüşlü kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399135 | Xələc kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399205 | Mahmudkənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399585 | Püsyan kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399115 | Yengicə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399385 | Yuxarı Daşarx kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399275 | Yuxarı Yaycı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399546 | Arbatan kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 399526 | Dərvişlər kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 399606 | Havuş kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 399296 | Həmzəli kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 399316 | Sərxanlı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 399626 | Tənənəm kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 399616 | Yeni Havuş kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **29** | | |
| | **2. Babək Rayon Statistika İdarəsi** | | | |
| 392154 | Cəhri kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 392335 | Aşağı Buzqov kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 392305 | Məzrə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 392356 | Gərməçataq kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 392376 | Göynük kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 392346 | Yuxarı Buzqov kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **6** | | |
| | **3. Ordubad Rayon Statistika İdarəsi** | | | |
| 394183 | Dəstə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş məsləhətçi |
| 394184 | Dəstə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 394214 | Dırnıs kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 394154 | Nüsnüs kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 394194 | Vənənd kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 394265 | Azadkənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394205 | Xanağa kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394235 | Unus kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394305 | Üstüpü kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394135 | Yuxarı Əylis kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394346 | Bist kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394316 | Çənnəb kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394296 | Düylün kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394376 | Gilançay kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394366 | Xurs kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394246 | Kələki kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394356 | Nəsirvaz kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394396 | Parağa kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394386 | Parağaçay qəsəbə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394126 | Şəhriyar qəsəbə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **20** | | |
| | **4. Kəngərli Rayon Statistika İdarəsi** | | | |
| 396154 | Xok kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| | **5. Şahbuz Rayon Statistika İdarəsi** | | | |
| 395104 | Şahbuz şəhər inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 395295 | Badamlı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 395165 | Kolanı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 395235 | Külüs kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 395225 | Şahbuzkənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 395176 | Aşağı Qışlaq kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395116 | Ayrınc kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395276 | Daylaqlı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395196 | Gömür kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395156 | Güney Qışlaq kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395146 | Qızıl Qışlaq kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395126 | Mahmudoba kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395136 | Nursu kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395266 | Sələsüz kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395316 | Şada kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395286 | Türkeş kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **16** | | |
| | **6. Sədərək Rayon Statistika İdarəsi** | | | |
| 397114 | Sədərək kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 397125 | Qaraağac kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **2** | | |
| | **Yekun:** | **74** | | |

## Basketbol üzrə muxtar respublika çempionatına başlanılıb



Oktyabrın 9-da Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində basketbol üzrə kişilər arasında Naxçıvan Muxtar Respublika çempionatının yüksək dəstə və birinci dəstəsinin oyunlarına start verilib. Bununla bağlı keçirilən tədbiri Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının sədr müavini Ənvər Məmmədov açaraq yarışın qaydaları haqqında məlumat verib.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra çempionatın birinci dəstəsinin ilk oyunu başlayıb. Oyunda "Sədərək" komandası "Naxçıvan" Universiteti komandasını qəbul edib. Gərgin keçən oyunda "Sədərək" komandası 28:23 xal hesabı ilə qalib olub.

Yüksək dəstənin ilk oyununda isə "Naxçıvan" komandası "Şərur" komandasını qəbul edib. Maraqlı keçən oyun 76:30 hesabı ilə "Naxçıvan" komandasının xeyrinə bitib.

Oktyabrın 15-də isə I turun ikinci oyunları keçiriləcək. Həmin gün birinci dəstədə "Şahbuz" komandası "Lokomotiv" komandasını qəbul edəcək. Oktyabrın 16-da isə yüksək dəstədə "Ordubad" komandası "Babək" komandası ilə qarşılaşacaq. Beləliklə, I tura yekun vurulacaq. Qeyd edək ki, II turun oyunları oktyabrın 22-23-də keçiriləcək. Həmin turda "Kəngərli" komandası "Sədərək" komandasını qəbul edəcək. Yüksək dəstədə isə "Culfa" komandası "Şərur" komandası ilə qarşılaşacaq.

## Boks üzrə açıq birincilik keçirilib

18 oktyabr – Dövlət Müstəqilliyi Günü münasibətilə Qıvraq qəsəbə tam orta məktəbində boks üzrə açıq birincilik keçirilib. Kəngərli Rayon Gənclər və İdman İdarəsinin, Təhsil Şöbəsinin, Uşaq-gənclər idman məktəbinin və Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilən birincilikdə 17 idmançı iştirak edib. Gərgin keçən mübarizə nəticəsində 52 kiloqram çəki dərəcəsində Şahtaxtı kənd tam orta məktəbinin şagirdi Ayxan Qubuşov birinci yerə, Qıvraq qəsəbə tam orta məktəbinin şagirdi Səttar Seyidov ikinci yerə, Şahtaxtı kənd tam orta məktəbinin şagirdi İsmayıl Mahmudov üçüncü yerə, 49 kiloqram çəki dərəcəsində Xok kənd tam orta məktəbinin şagirdi Ruslan Seyidov birinci yerə, Şahtaxtı kənd tam orta məktəbinin şagirdi Əli Seyidov ikinci yerə, həmin məktəbin şagirdi Çingiz Qasımov üçüncü yerə, 35 kiloqram çəki dərəcəsində Qıvraq qəsəbə tam orta məktəbinin şagirdi Sinan Əbilov birinci yerə, Şahtaxtı kənd tam orta məktəbinin şagirdi Cəsarət Qədimov ikinci yerə, həmin məktəbin şagirdi Ucar Musayev üçüncü yerə layiq görülüblər.

Qaliblərə Kəngərli Rayon Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

## Poliatlon çoxnövçülüyü üzrə şəhər birinciliyi

"N" hərbi hissənin təlim-məşq meydanında payız çağırışına həsr olunan "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə Naxçıvan şəhər birinciliyi keçirilib. Yarışı Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsi təşkil edib.

Yarışdan əvvəl Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Naxçıvan Şəhər Təhsil Şöbəsinin nümayəndəsi Coşqun Əliyev və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin əməkdaşı, leytenant Elxan Seyidov çıxış edərək yarış iştirakçılarına uğurlar arzulayıblar. Qeyd edilib ki, belə yarışların keçirilməsi Naxçıvan şəhərində yaşayan çağırışaqədərki və çağırışyaşlı yeniyetmə və gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasına, hərbi xidmətə hazırlıq səviyyəsinin yüksəldilməsinə kömək edir.

Yarışda Naxçıvan şəhərindən 14 tam orta məktəbin komandası iştirak edib. Poliatlon dördnövçülük proqramına uyğun olaraq yarış 100 metr qaçış, 2000 metr kross, qumbaraatma və turnikdə dartınma növləri üzrə keçirilib. Birincilikdə 16 nömrəli tam orta məktəbin komandası birinci, 3 nömrəli tam orta məktəbin komandası ikinci, 15 və 10 nömrəli tam orta məktəblərin komandaları isə üçüncü yerlərə layiq görülüblər.

Sonda yer tutan komandalara təşkilatçıların diplom, fəxri fərman və kubokları verilib. Birinci yerin qalibi olan 16 nömrəli tam orta məktəbin komandası poliatlon çoxnövçülüyü üzrə zona birinciliyində Naxçıvan şəhərini təmsil etmək imkanı əldə edib.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 753